# Həmrəylik Günü münasibətilə hazırlanmış virtual sərgi istifadəçilərə təqdim olunub



**Milli Kitabxanada "31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü" adlı virtual sərgi və ənənəvi kitab sərgisi istifadəçilərə təqdim olunub.**

Kitabxanadan AZƏRTAC-a bildirilib ki, virtual sərgidə fotolar, həmçinin əlamətdar günlə bağlı Azərbaycan və müxtəlif dillərdə ədəbiyyatlar, dövri mətbuatda dərc olunan məqalələr nümayiş olunur.

Virtual sərgi ilə tanış olmaq istəyənlər https://anl.az/el/vsb/Dunya_Azerbaycanlilarinin_Hemreylik_Gunu/index.htm linkindən istifadə edə bilərlər.

Ənənəvi sərgidə "Ümummilli Lider Heydər Əliyev və milli həmrəylik məfkurəsi", "Ulu Öndər Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq", "Azərbaycan xalqının milli ideologiyası, "Vətənpərvərlik məfkurəsi", "Milli dövlətçilik məfkurəsi", "Azərbaycan diasporunun təşəkkülü və fəaliyyəti tarixi", "Mənəvi dəyərlərin təbliği" və s. mövzularda Azərbaycan və müxtəlif dillərdə ədəbiyyatlar, dövri mətbuatda dərc olunan məqalələr nümayiş olunur.

Azərbaycan.-024.- 30 dekabr (№ 290).- S.18.